# Böyük qayıdışımızın sevinci

***Zəngilan 1993-cü il oktyabrın 29-da Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, 2020-ci il oktyabrın 20-də isə Azərbaycan Ordusu şəhəri azad etmişdir.***



2021-ci il fevralın 14-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonuna səfəri zamanı dövlət başçısı Ağalı kəndində "ağıllı kənd" layihəsinin istifadəyə verildiyini bildirmişdir. Eyni zamanda, Azərbaycanı Türkiyə ilə birləşdirən Horadiz–Zəngilan–Ağbənd dəmir yolunun təməli qoyulmuşdur.

2021-ci il martın 18-də Türkiyənin Kənd təsərrüfatı və meşə naziri Bəkir Pakdemirlinin rəhbərlik etdiyi nümayəndə heyəti Zəngilanda olmuş, Ağalı kəndində Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi və Türkiyə Kənd Təsərrüfatı və Meşə Təsərrüfatı Nazirliyinin birgə təşkilatçılığı ilə yaradılmış "Qardaşlar bağı"nın açılışını etmişdir. 2021-ci il mayın 1-də Zəngilan Beynəlxalq Hava Limanının tikintisinə başlanıldığı barədə məlumat yayılmışdır. Hazırda hava limanında tikinti işləri yekunlaşmaq üzrədir.

Prezident İlham Əliyev 20 oktyabr 2021-ci ildə "Zəngilan şəhərinin baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır. Prezident eyni zamanda, Azərbaycan Respublikasının Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğunun bərpası haqqında sərəncam da imzalamışdır.

Ötən il oktyabrın 26-da Azərbaycan və Türkiyə prezidentləri Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun təməlqoyma mərasimində iştirak etmişlər. Səfər zamanı dövlət başçıları Türkiyənin dəstəyi ilə salınması planlaşdırılan "Dost Aqroparkı"nın da təməlini qoyublar.

Minaların təmizlənməsi və infrastrukturun bərpası işlərindən sonra, 2022-ci ildən başlayaraq azərbaycanlıların azad edilmiş ərazilərə geri dönüşü başlanıldı. Ağalı kəndləri məskunlaşılan ilk ərazilər oldu.

Ağalı kənd sakinlərinin ilk qrupu 2022-ci il iyulun 19-da, ikinci qrupu isə sentyabrın 7-də doğma yurda qayıtdı..

Bu hadisə, əlbəttə ki, Azərbaycan xalqı üçün qələbədən sonra yaşadığı ikinci böyük sevinc idi. Dədə-baba yurduna qalib kimi dönmək, torpağına qədəm qoyub doğma yurdun havasını udmaq hər bir zəngilanlı üçün böyük fəxr idi. Yaşanılan bu sevinc hissinə görə Ağalı sakinləri ilk növbədə, Prezident İlham Əliyevə minnətdarlığını bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimiz üçün Allahdan şəfa diləyirlər.

Bəli, bu gün Ağalıda əsl bayram əhval-ruhiyyəsi hökm sürür. Otuz il bundan əvvəl öz ata- baba yurdundan didərgin düşmüş kənd sakinləri yenidən bu torpağa qayıdır, öz doğma nəfəsləri ilə torpağa can verirlər. İllərlə yetim qalıb, boynu bükük şəkildə əsl sakinlərini gözləyən kənd öz qollarını əzizləri üçün açır. Burada həyat yenidən canlanır.

İlk pilot layihənin məhz Zəngilanda icra edilməsi, əlbəttə ki, ağalılar üçün böyük sevindirici haldır. İşğaldan azad olunmuş bölgələrimiz ən müasir texnologiyaların tətbiqi əsasında yenidən qurulur. Zəngilan rayonunun Ağalı kəndi də belə yaşayış məntəqələrimizdən biridir. Ağalıya "ağıllı kənd" layihəsi çərçivəsində yeni nəfəs verilir. "Ağıllı kənd" layihəsinin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılmışdır. İnnovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə başa çatdırıldı.

Kənddə yaradılmış "ağıllı məktəb"də distant təhsilin aparılması üçün bütün imkanlar mövcuddur. Burada müasir şəhərsalma standartları tətbiq olunmuşdur. Kənddə piyada və velosiped yolları çəkilib. Ağalıda kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı bir sıra işlər görülmüşdür. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunur. Bundan əlavə, "Ağıllı kənd" layihəsi üçün əkin planı hazırlanıb. Planda nəzərdə tutulmuş torpaq sahələrinin əkinə yararlılığı qiymətləndirilib və əkin üçün hazırlığa başlanılıb. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər görülüb. "Ağıllı kənd"də xüsusi layihə çərçivəsində ictimai ferma qurulmuşdur. Fermada 250 baş qaramal və 600 baş davarın saxlanması mümkündür. Burada "ağıllı idarəetmə sistemi" məlumat və təhlil mərkəzindən həyata keçirilir.

Rəhbərlik etdiyim məktəb müasir təlim texnalogiyalarının tətbiq olunduğu və innovativ yenilikləri özündə əks etdirən bir məktəbdir. Əlbəttə ki, məktəbimizin birinci məqsədi ölkəmizə yararlı olan müasir düşüncəli, yüksək əxlaqa mənsub, savadlı və vətənpərvər şəxsiyyətlər yetişdirməkdir. Məlumdur ki ,təlim - tərbiyə işi böyük zəhmət və səbir tələb edən prosesdir. Bu yolda mənimlə çiyin-çiyinə işləyəcək bütün pedaqoji heyətə uğurlar arzu edirəm. Ümid edirəm ki,kollektivimiz qarşımıza qoyduğumuz məqsədlərə nail olacağıq.

Bütün ağalılara, bura qayıtmış yurddaşlarımızın hər birinə doğma diyarımızda əmin-amanlıq, xoşbəxtlik, firavan həyat arzu edirəm. Qarabağın dirçəlişi hər bir şəhidimizin ruhunu şad edəcək, qazilərimizin yaralarına məlhəm olacaq.

***Nərmin HƏSƏNOVA,***
***Ağalı kənd tam orta məktəbinin direktoru***

Xalq qəzeti .-2022.- 9 sentyabr.- S.5.